*"Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı". Dahi mütəfəkkir C.Məmmədquluzadə - Molla Nəsrəddin tərəfindən 1906-cı il aprel ayının 7-də nəşr edilən "Molla Nəsrəddin" jurnalının üz qabığında bu kəlam öz əksini tapmışdır. Böyük vətəndaş-vətənpərvər şəxsiyyət həmçinin jurnalın ilk nömrəsində xalqına, bütün müsəlman qardaşlarına üz tutaraq, onlara müraciətlə: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" demişdir.*

# "Molla Nəsrəddin"



## Ədəbiyyat muzeyinin fondunda və ekspozisiyasında

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyinin ölkəmizdə layiqincə qeyd edilməsi haqqında imzaladığı sərəncamda yazılmışdır: "Görkəmli yazıçı C.Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə fəaliyyətə başlayan "Molla Nəsrəddin" xüsusi ədəbi məktəb yaratmış, milli mətbuatımızın inkişafının qızıl səhifələrini yazmışdır".

Sərəncamda AMEA, Azərbaycan Təhsl Nazirliyi, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinə tapşırılmışdır ki, yubileylə əlaqədar, eləcə də XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin inkişafına töhfələr vermiş, digər maarifçi mətbuat orqanlarına həsr edilmiş tədbirlər hazırlayıb həyata keçirsinlər.

"Molla Nəsrəddin" jurnalı ilk illüstrasiyalı - bədii, ictimai-siyasi jurnal kimi fəaliyyətə başlamış, qısa fasilələrlə 25 il fəaliyyət göstərmişdir. Jurnalın 1906-1918-ci illərdə Tiflisdə 370; 1921-ci ildə Təbrizdə 8, 1922-1931-ci illərdə Bakıda 400 nömrəsi nəşr edilmişdir. Cəmi 778 nömrə.

C.Məmmədquluzadə jurnalın nəşrinə, çap olunmasına çox böyük əmək sərf etmiş, əsl fədakarlıq və vətənpərvərlik göstərmiş, ədəbi-bədii, ictimai fikir tariximizdə özünü əbədiləşdirmiş, bütün Şərq aləmində böyük şöhrətə layiq olmuş, özünə ədəbi heykəl ucaltmışdır.

1903-cü ildə Tiflisdə "Qeyrət" mətbəəsində C.Məmmədquluzadə "Şərqi-Rus" qəzetinin mühərriri Məhəmmədağa Şahtaxtılı ilə tanış olur. M.Şahtaxtılı Mirzə Cəlili qəzetdə işləməyə dəvət edir.

C.Məmmədquluzadə 1926-cı ildə qələmə aldığı "Tərcümeyi-hal"ında yazırdı: "Bazardan Məmmədağa məni zorla apardı düşdüyüm "Qafqaz" mehmanxanasına və zorla mənim yatacağımı və şeylərimi qoydu faytona, məni apardı evinə ki, gərək qalam, onun qəzeti üçün hekayə yazan olam. Mən də qaldım". (Bax.Əziz Şərif. "Molla Nəsrəddin" necə yarandı". Bakı, 1986.səh.354).

Burada - Tiflisdə "Qeyrət" mətbəəsində 1906-cı ilin aprel ayının 7-də C.Məmmədquluzadənin təşəbbüsü və rəhbərliyi ilə "Molla Nəsrəddin" jurnalı çap olunmağa başlayır. C.Məmmədquluzadə də "Molla Nəsrəddin" adı ilə tanınmış olur. Jurnal öz ətrafına M.Ə.Sabir, Ə.Qəmküsar, Ə.Haqverdiyev, O.F.Nemanzadə, M.S.Ordubadi, Ə.Nəzmi, S.Mümtaz, M.Möcüz, Ü.Hacıbəyov, Q.Şərifzadə, O.Şmerlinq, İ.Rotter, Ə.Əzimzadə və digər ziyalıları, vətənpərvərləri cəlb edərək az bir vaxtda özünün pərəstişkarlarını, tərəfdarlarını, oxucularını tapır. C.Məmmədquluzadənin təvazökarlıqla dediyi kimi: - "Molla Nəsrəddin" - tək bir nəfər müəllifin deyil, "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmusudur ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam". (Bax. İ.Həbibbəyli. Cəlil Məmmədquluzadə, səh.19. Bakı, "İşıq" - 1987)

Jurnalın nömrələrində, səhifələrində felyetonlar, məzəli teleqramlar, siyasi tapmacalar, lətifələr, təmsillər, atalar sözləri, ailə-məişət məsələləri, xəbərlər, şerlər və s. dərc olunurdu. Qadın azadlığı, qadın hüquqsuzluğu, əxlaq, namus, xeyriyyə məsələlərinə xüsusi məqalələr, səhifələr həsr edilirdi. Jurnal xalqın başa düşəcəyi dildə danışmağa, yazmağa səsləyirdi. Xüsusilə ana dilinin, türk dilinin xalqımız üçün əhəmiyyətini yüksək qiymətləndirirdi. Bu gün C.Məmmədquluzadənin arzuları, çağırışları, nəsihətləri, uzaqgörənliyi artıq həqiqətə çevrilmişdir.

İndi müstəqil Azərbaycan Respublikamızın bütün vətəndaşları öz milli, anadilli mətbuatlarının sahibidirlər. Dilimiz, dinimiz, mədəniyyətimiz, elmimiz, mətbuatımız xalqımıza xidmət edir, hüquqlarımızı müdafiə edir.

"Molla Nəsrəddin" jurnalının 100 illiyi ilə əlaqədar C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyində xüsusi tədbirlər planı hazırlanmış, keçiriləcək tədbirlər müəyyənləşdirilmişdir. Muzeydə "Molla Nəsrəddin" - 100" başlıqlı sərgi-ekspozisiya yaradılmışdır. "Molla Nəsrəddin" jurnalı və Molla Nəsrəddinçilərə həsr edilmiş sərgi-ekspozisiya elə təşkil edilmişdir ki, həm muzeydə, həm də muzeydənkənar keçiriləcək tədbirlərdə istifadə edilsin. Tədbirlər planında "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı" elmi-ədəbi konfrans keçirilməsi nəzərdə tutulmuşdur. İlk belə tədbir ədibin adını daşıyan 2 saylı orta məktəbdə keçirilmişdir.

Muzeyimizin əməkdaşlarının təklifi ilə 2006-cı il "Molla Nəsrəddin" ili elan edildiyindən belə tədbirlər il ərzində keçiriləcək, mətbuatda, televiziya və radioda məqalələrlə, yazılarla çıxışlar ediləcəkdir.

C.Məmmədquluzadənin ədəbi-bədii, ictimai, mədəni-maarifçilik irsini-fəaliyyətini öyrənmək və tamaşaçılar, dinləyicilər arasında yaymaq, təbliğ etmək məqsədilə muzeydə "Mirzə Cəlil - "Molla Nəsrəddin" lektoriyası fəaliyyət göstərir. Həmçinin "Mirzə Cəlil gülüşü" rüblük divar qəzeti-bülleteni çıxarılır.

Məqsəd C.Məmmədquluzadənin ailə dünyası - ailə şəcərəsi, təhsil illəri, ədəbi-ictimai fəaliyyəti, "Molla Nəsrəddin" jurnalı və Molla Nəsrəddinçilər haqqında tamaşaçılara, lektoriya iştirakçılarına hərtərəfli məlumat verməkdir. Lektoriyanın ilk məşğələsi 31 oktyabr 1986-cı ildə keçirilmişdir.

İlk məşğələdə akademik İsa Həbibbəyli, xalq yazıçısı Hüseyn İbrahimov, filologiya elmləri doktoru Yavuz Axundlu, filologiya elmləri namizədləri Lətif Hüseynzadə, Fərman Xəlilov, Cabbar Cəlilov, Məcid Babayev, əməkdar mədəniyyət işçisi Cəlil Vəzirov, fəlsəfə elmləri namizədi Rüstəm Eminov iştirak etmiş və çıxışlarında lektoriyanın fəaliyyətə başlamasını yüksək qiymətləndirmişlər. Lektoriyanın məşğələlərində ədəbiyyatşünas alimlər C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Teatrı, Naxçıvan Dövlət Filarmoniyasının yaradıcı heyəti - nümayəndələri, Naxçıvan Rəssamlar və Bəstəkarlar Birliyinin üzvləri, Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri, yazıçılar, şairlər, ziyalılar müxtəlif mövzularda çıxışlar etmişlər. Lektoriyanın məşğələləri muzeydə və muzeydənkənar müəssisələrdə keçirilir.

Akademik Abbas Zamanovun lektoriyanın fəaliyyətə başlaması ilə əlaqədar məktubundan: "Mirzə Cəlil lektoriyası"nın işə düşməsi, yəni fəaliyyətə başlaması məni çox sevindirdi. Əgər ömür vəfa etsə "Cəlil Məmmədquluzadə xaricdə" mövzusunda lektoriyada çıxış edəcəyəm.

Sübhi, Mirzə Cəlilin doğulduğu ev qalırmı? Əgər qalmırsa, evin olduğu yer məlumdurmu? Bununla maraqlan, nəticəsini mənə bildir. İsa Həbib müəllim yəqin ki, bunu bilir. Bununla birlikdə maraqlanın.

Hörmətlə Sizin Abbas Zamanov.
7.III.1987. Bakı".

C.Məmmədquluzadənin tədqiqatçısı Qulam Məmmədlinin məktubundan:

Dostum Sübhi!

Sizə məsləhətim budur ki, mənim "Molla



*Xalqımızın milli şüurunun formalaşmasında "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlil fəaliyyətinin rolu əvəzsizdir.*

*Heydər Əliyev*

Nəsrəddin" adlı kitabımı diqqətlə oxuyun. Orada Mirzə Cəlilə, "Molla Nəsrəddin" jurnalına, Azərbaycanda və Orta Şərqdə siyasi-ictimai həyata aid yüzlərlə sənəd var, bunlardan istifadə ilə muzeyi zənginləşdirmək olar. Bu barədə mənim konkret təklifim budur.

Mirzə Cəlilin səfərləri haqqında sxematik xəritə çəkdirib, onun haralarda olduğunu göstərmək faydalı və maraqlı olar. Mirzə Cəlil - Naxçıvan - İrəvan, Naxçıvan-Moskva, Naxçıvan-Tiflis, Tiflis-Qarabağ, Qarabağ-Bakı, Aşqabad-Daşkənd, Ordubad-Həştərxan, Bemrovsk-Vladikafqaz, Bakı-Qarabağ, Qarabağ-Təbriz, Təbriz-Naxçıvan, Tiflis-Bakı və ilaxır. "Molla Nəsrəddin" mükəmməl şəkildə çapa gedib, çıxan kimi sizə göndərəcəyəm. Hələlik bu qədər.

Sizin Qulam. 26.II. 1983. Bakı".

Muzeydə "Cəlil Məmmədquluzadə fondu" yaradılmış, Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətini əks etdirən eksponatların elmi kataloqu tərtib edilmişdir. C.Məmmədquluzadənin adı ilə bağlı muzeylərin fəaliyyətindən bəhs edən "Naxçıvanda C.Məmmədquluzadə muzeyləri" kitabçası nəşr etdirilmişdir. (Müəlliflər S.Kəngərli, X.İsmayılova). Muzey əməkdaşları C.Məmmədquluzadə tədqiqatçıları, ədəbiyyatşünas alimlərlə, rəssamlarla, yazıçı və şairlərlə, arxivlərlə, kitab mağazaları ilə, muzeylərlə əlaqə yaradaraq əldə edilmiş materiallar-eksponatlar hesabına muzey fondunu və ekspozisiyasını daha da zənginləşdirirlər.

Fond və ekspozisiya xronoloji ardıcıllıqla ədibin ədəbi-bədii irsini əhatə edir. Burada yazıçının atasının, ailə üzvlərinin, qələm dostlarının, seminariya yoldaşlarının, Molla Nəsrəddinçi şairlərin, C.Məmmədquluzadənin sevdiyi klassiklər, tədqiqatçılarının, Naxçıvan müasirlərinin fotoları öz əksini tapır. Eləcə də "Molla Nəsrəddin" jurnalı ilə bağlı sənədlər, respublikamızın teatrlarında səhnəyə qoyulmuş tamaşaların afişaları, proqramları, dəvətnamələri, tamaşaların maketləri, eskizləri, maqnitafon-lent yazıları, qramplastinkalar, xatirə əşyaları, yubiley materialları, təsviri-sənət əsərləri və başqa materiallara aid məlumatlar vardır.

Tiflisdə "Molla Nəsrəddin" jurnalının nəşr olunduğu "Qeyrət" mətbəəsi, ədibin pedaqoji fəaliyyəti və digər eksponatlar haqqında məlumatlar almaq olar. Tiflis Dövlət Arxivindən əldə edilmiş "Molla Nəsrəddin" jurnalının nəşri ilə əlaqədar C.Məmmədquluzadənin fəaliyyətinə aid sənədlərin surətləri: - Məsələn: 2.II. 1906-cı il. "Molla Nəsrəddin" jurnalının nəşr olunması üçün C.Məmmədquluzadənin Tiflis qubernatoruna yazdığı məktubun surəti, 4.IV.1906-cı il. "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması üçün Tiflis general-qubernatorunun icazənaməsinin surəti, 22.XI.1907-ci il "Molla Nəsrəddin" jurnalının nəşrini dayandırmaq haqqında sənədin və jurnalın nəşrinə yenidən baxılacağını bildirən sənədin surəti, 26.V.1916-cı il "Molla Nəsrəddin" jurnalının nəşrini davam etdirmək məqsədilə C.Məmmədquluzadə və Ə.Qəmküsar Aşqabada gedib, orada teatr tamaşaları göstərib pul toplayırlar. Onlarla maraqlanan Aşqabad polis idarəsi Tiflis qubernatoruna məktub yazır, onlar haqqında məlumat verilməsini tələb edən sənədin surəti və başqa sənədləri göstərmək olar. Bu sənədlər onu göstərir ki, C.Məmmədquluzadə jurnalın fəaliyyəti ilə əlaqədar necə çətinliklərlə qarşılaşmışdır. "Molla Nəsrəddin" jurnalının 1907, 1908, 1909, 1911, 1917, 1925, 1926, 1927-ci illərin orijinal nüsxələri, ədib haqqında yazılan elmi məqalələr, qəzet və jurnal materialları bu baxımdan diqqətə layiqdir.



C.Məmmədquluzadənin ailə üzvləri - Həmidə xanım, oğlanları Midhət, Ənvərlə müxtəlif illərdə çəkdirdiyi foto-şəkillər, ədibin qızı Münəvvər xanımın evindən götürülmüş şəxsi əşyalar, Münəvvər xanım, Məmməd Cəfər, Mehdi Hüseyn, Rza Əfqanlı ilə birlikdə və başqa foto-şəkillər qorunub saxlanılaraq nümayiş etdirilir.

Heykəltəraş, xalq rəssamı Südabə Əliverdiyevanın C.Məmmədquluzadənin mərmər heykəl-büstü, heykəltəraş Fuad Nəcəfovun C.Məmmədquluzadə və M.Ə.Sabirin heykəlləri, heykəltəraş Elcan Şamilovun, Mirələsgər Mirqasımovun, Hüseynqulu Əliyevin yazıçının müxtəlif formada heykəlləri muzeydə öz əksini tapmışdır.

Xalq rəssamları O.Sadıqzadənin, N.İsmayılovun, H.Əliyevin, N.Mahmudovun, əməkdar incəsənət xadimi M.Qasımovun, İ.Əliyevin C.Məmmədquluzadəyə, onun əsərlərinə həsr etdikləri təsviri-sənət nümunələri, rəngli qrafik illüstrasiyalı və digər janrlı əsərlər muzeydə nümayiş etdirilir. Bir sözlə, C.Məmmədquluzadə irsinin toplanması, öyrənilməsi və təbliğ edilməsi işi muzey əməkdaşlarının müqəddəs bir vəzifəsi, fəaliyyətlərinin əsasını təşkil edir.

C.Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı ilə bağlı muzeydə və muzeydənkənar keçirilən tədbirlərdən nümunələr: - "Şərqin böyük ədib və mütəfəkkiri", "Molla Nəsrəddin" jurnalı və Ə.Əzimzadə", "Molla Nəsrəddin" jurnalı və onun əməkdaşları", "Molla Nəsrəddin" jurnalı muzeyin fondunda", C.Məmmədquluzadə və M.Ə.Sabir ədəbi əlaqələri", C.Məmmədquluzadənin Naxçıvanlı müasirləri", "C.Məmmədquluzadənin dramaturgiyası", "C.Məmmədquluzadə irsinin öyrənilməsi və təbliğində yeni mərhələ", "Molla Nəsrəddin"çi karikaturaçı rəssam Oskar İvanoviç Şmerlinq", "M.Ə.Sabir, C.Məmmədquluzadə və maarifpərvər qadın Həmidə xanım Məmmədquluzadə", "C.Məmmədquluzadə və təbabət" və başqa tədbirlər məruzələr, mühazirələr, ekspozisiyalar, sərgilər vasitəsilə həyata keçirilmişdir. Muzey əməkdaşları - əməkdar mədəniyyət işçisi Çimnaz Mədətova, baş fond mühafizi Xanım İsmayılova, şöbə müdiri Firəngiz Hüseynova, böyük elmi işçilər İradə Məhərrəmova və Rahilə İbrahimova, rəssam Aysel Bayramova bu tədbirlərdə yaxından iştirak etmişlər.

Böyük ədibin, "Molla Nəsrəddin" jurnalının xalqımızın, mədəniyyətimizin, mətbuatımızın inkişafında oynadığı əvəzedilməz rolu, xidmətləri öyrənmək, geniş yaymaq biz muzey işçilərinin müqəddəs vəzifəsidir.

***Sübhi KƏNGƏRLİ,***
***C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi***

### Ədəbiyyat

**1. "Xalq qəzeti" №14; 24 yanvar 2006-cı il.**
**2. Əziz Şərif. "Molla Nəsrəddin" necə yarandı". Bakı, 1986.**
**3. Firidun Hüseynov. "Molla Nəsrəddin" və Mollanəsrəddinçilər". Bakı, 1986.**
**4. İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə. Bakı, 1987.**
**5. Sübhi Kəngərli, Xanım İsmayılova. "Naxçıvanda Cəlil Məmmədquluzadə muzeyləri". Naxçıvan, 2004.**